# Qəbələ sosial-iqtisadi inkişafın və mədəni həyatın dönüş mərhələsində

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2012-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına dair hesabat məruzəsi

**(Əvvəli 7-ci səhifədə).**

Rayonumuzda son illər aqrar sahədə müşahidə edilən inkişaf 2012-ci il ərzində də davam etmişdir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında, həmçinin “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nda aqrar sahə üzrə nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsi rayonun aqrar sahəsinin inkişafında həlledici rol oynamışdır. Aparılan islahatların dərinləşməsi, makroiqtisadi sabitlik, iqtisadiyyatın dinamikası adamların rifahının yaxşılaşdırılmasına stimul verir.

Xüsusilə qeyd etmək lazımdır ki, hörmətli Prezidentimiz cənab İlham Əliyev tərəfindən imzalanmış “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” 23 yanvar 2007-ci il tarixli Sərəncam kəndli sahibkarlarda böyük ruh yüksəkliyi yaratmışdır. Rayon komissiyası tərəfindən Sərəncamın icrası ilə əlaqədar olaraq 2011-ci ilin sonunda torpaq mülkiyyətçilərinə dövlət büdcəsinin vəsaiti hesabına 795.420 manat yardım hesablanmış və həmin vəsait 2012-ci ilin I rübündə plastik kartlar vasitəsilə sahiblərinə çatdırılmışdır. Bundan əlavə komissiya tərəfindən ötən ilin iyun ayında rayonun 2.139 nəfər torpaq sahibkarına əkin sahələrinin becərilməsinə görə 1.069.568 manat yardım hesablanmış və həmin vəsait də plastik kartlar vasitəsilə sahibkarlara ödənilmişdir.

2012-ci ilin məhsulu üçün 25.820 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir. Onun 20.150 hektarını buğda, 5.670 hektarını isə arpa sahələri təşkil edir. Biçilmiş sahələrdən 62.132 ton məhsul toplanmış və məhsuldarlıq hər hektardan 24 sentner olmuşdur. Hazırda bütün aqrotexniki qaydalara riayət etməklə taxılçılıqda məhsuldarlığı yüksəltmək və bu hesaba taxıl sahələrini azaltmaq istiqamətində işlər görülür. Azad olmuş sahələrdə isə inkişaf edən heyvandarlığın yem bazasının möhkəmləndirilməsi üçün yem bitkiləri əkininin genişləndirilməsi nəzərdə tutulmuşdur.







***Ötən il noyabr ayının 15-də Moskva–Qəbələ–Moskva marşrutu üzrə beynəlxalq təyyarə uçuşlarına başlanmışdır.***

Torpaq sahibləri tərəfindən 2012-ci ilin məhsulu üçün 5.912 ha sahədə yazlıq bitkilər əkilmişdir. Əkilmiş sahənin 1.074 hektarını kartof , 2.086 hektarını tərəvəz, 1.362 hektarını qarğıdalı, 132 hektarını bostan bitkiləri, 1258 hektarını isə birillik və coxillik otlar təşkil etmişdir. Həmin sahələrdən 7.017 ton kartof, 9.387 ton tərəvəz, 1.868 ton bostan məhsulu, 3.228 ton qarğıdalı, 14.130 ton meyvə, 1.856 ton üzüm istehsal olunmuşdur.

Ötən il rayonda mövcud olan torpağın münbitliyini öyrənmək məqsədilə 8.654 ədəd torpaq nümunəsi və 3.012 məhsul nümunələri götürülərək laboratoriya analizindən keçirilmiş və nəticələri barədə torpaq mülkiyyətçilərinə məlumat verilmişdir.

Aqrotexniki xidmətlərin həyata keçirilməsi məqsədi ilə ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbirləri gücləndirilmiş, il ərzində alaq otlarına qarşı 8.682 hektar, gəmiricilərə qarşı 8.160 hektar sahə dərmanlanmışdır.

2012-ci ildə hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinə laboratoriya analizi üçün gətirilmiş qarğıdalı, kartof, yonca, taxıl toxumları yoxlanılmış və müvafiq rəy verilmişdir.

2012-ci il ərzində Dövlət Meşə Fondu torpaqlarında 32 hektar meşə əkini aparılmışdır ki, bunun da 15 hektarını qiymətli meşə cinsi olan palıd qozaları təşkil etmişdir. 17 hektar sahədə isə qoz-şabalıd cinslərindən ibarət plantasiyalar salınmışdır. İl ərzində bağlara və üzümlüklərə qulluq işləri davam etdirilmiş və 350 ədəd köklü fındıq tingi yetişdirilmişdir.

Hazırda rayonda kifayət qədər kənd təsərrüfatı texnikası mövcuddur. Belə ki, bu gün 2 böyük və 2 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir və onlarda 115 ədəd kənd təsərrüfatı texnikası cəmlənmişdir. Bundan əlavə 457 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayon üzrə 90 ədəd taxılyığan kombayn, 53 ədəd tırtıllı və 444 ədəd təkərli traktor, 29 ədəd buldozer, 38 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı müntəzəm olaraq təzələnir. Hesabat ilində aqroservislərə 11 ədəd yeni kənd təsərrüfatı texnikası alınmışdır.

Heyvandarlıq sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Hazırda rayonumuzda iribuynuzlu mal-qaranın sayı 247 baş artaraq 52.520 başa, qoyun-keçilər 607 baş artaraq 218.469 başa, donuzların sayı 25 baş artaraq 981 başa, quşların sayı isə 12.383 ədəd artaraq 339.649-a çatmışdır. Keçən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsulları istehsalı da xeyli artmışdır. Belə ki, ət istehsalı 436 ton artaraq 5.884 tona, süd istehsalı 1.360 ton artaraq 27.487 tona, yumurta istehsalı 410 min ədəd artaraq 8.554 min ədədə, yun istehsalı isə 6 ton artaraq 453 tona çatdırılmışdır.

Rayonda mal-qaranın damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 8 süni mayalama məntəqəsi fəaliyyət göstərir. İl ərzində 2.304 baş inək və düyələrdə süni mayalama aparılmışdır ki, bu da yüksək məhsuldar cinslərin əldə olunmasına imkan yaradacaqdır. Ötən ilin may və iyun aylarında süni mayalama və damazlıq işləri üzrə keçirilən respublika seminar-müşavirəsində Qəbələ rayonunda bu sahə üzrə aparılmış işlər yüksək qiymətləndirilmişdir. Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hazırda rayonda epizotik durum demək olar ki, sabitdir.

2012-ci ildə rayonun qızılbalıqyetişdirmə zavodunda da xeyli işlər görülmüşdür. Zavodda 57.280 min ədəd sağlam kürü yetişdirilərək Xəzər dənizinə və şirin su hövzələrinə buraxılmışdır.

**(Ardı 9-cu səhifədə).**